J.S.ŞÜKÜROVA
filologiya üzrə fəlsəfə doktoru
e-mail: shukurova.jalya@mail.ru

AMEA-nın M.Füzuli ad. Əlyazmalar İnstitutu
(Bakı şəh., İstiqlaliyyət küç., 26)

:10.62021/0026-0028.2024.2.144

MƏHƏMMƏD FÜZULİ SÖZÜNÜN QÜDRƏTİ

Xülasə. *M. Füzuli yaradıcılığı klassik ədəbiyyatımızın incisidir. Onun əsərləri sevilir, oxunur və əsrlər sonra da oxunacaq. Doğma dilinə böyük hörmət və məhəbbətlə yanaşan Füzulinin yaradıcılığı hər insan ağlı üçün əlçatan mənbə deyil. Bu mənbəni dərk etmək üçün oxucunun yüksək zövqü, dərin düşüncəsi olmalıdır. Böyük Füzuli dediyi hər sözün qədrini bilib, onu göylərə qaldırmağı bacarmışdır. İlahi gözəlliyi vəsf etməkdə əvəzsiz oan Füzuli məhz bu səbəbdən dünya söz sənətinin zirvəsində dayanır. Dərya ənginliklərində gizli qalmış gövhər kimi Füzuli sənəti də məna baxımından möhtəşəm hikmət okeanının dərinliyində pünhan qalmış məqamlarla zəngindir.*

Açar sözlər: *məna, söz sənəti, dil, bədii üslub, fəlsəfə*

Füzuli dahidir − mübahisəsiz, mübaliğəsiz; kəlamı sahilsiz ümman, fəlsəfəsi əlçatmaz bir zirvə. Hikmət dolu söz xəzinəsi əsrlərin sınağından keçərək qəlblərdə taxt salmağı bacarmış, fəlsəfəsi isə bu söz xəzinəsinə əbədi bağlanmış oxucularını öz aşiqinə çevirmişdir. Füzuli haqqında onlarla tədqiqat işi yazılmış, bundan sonra da yazılacaqdır. Yazıldıqca da bu sonsuz umman artacaq, bir qətrə belə azalmaq bilməyəcəkdir. Dahi şairin də elə ölməməzliyi, həmişə yaşarlığının səbəbi budur.

"Füzulinin sənəti, şübhəsiz ki, axırıncılardandır" [13, s. 3]. Şair özü də qələminin təkrarsızlığı gerçəkliyini qəbul edirdi. Necə ki özü deyir:

Gör nə sultanəm məni-dərviş kim feyzi-söxən,
Eyləmiş iqbalımı asari-nüsrət məzhəri.
Hər sözüm bir pəhləvandır kim bulub təyidi-həqq,
Əzm qıldıqda dutar tədric ilə bəhrü bəri,
Qanda kim əzm etsə mərsumu məvacib istəməz,
Qansı mülkü tutsa, dəyməz kimsəyə şuru şəri...! [7, s. 360]

"Füzuli nə alimdir, nə filosof: o sözün həqiqi mənasında Şairdir! Onun poeziyası dünyagörüşünün deyil, dünya duyumunun ifadəsinə xidmət edir" [12, s. 5].

Doğma dilinə böyük ehtiram və sevgi ilə yanaşan Füzuli yaradıcılığı hər insan zəkasının qavrayacağı və idrak edəcəyi bir mənbə deyildir. Bu mənbəni anlamaq üçün oxucu yüksək zövqə və dərin təfəkkürə malik olmalıdır. Böyük sənətkar dediyi hər bir kəlmənin dəyərini bilmiş, onu göylərə qaldırmağı bacarmışdır. İlahi gözəlliyin tərənnümündə əvəzsiz olan Füzulinin söz sənət aləminin zirvəsində durması da elə bu səbəbdəndir.

Füzuli yaradıcılığının çiçəklendiyi dövr Səfəvi və Osmanlı hakimiyyəti illərinə təsadüf edir. Məhz bu zaman kəsiyində şairin yaşadığı Bağdad şəhəri öz mədəni yüksəliş dövrünü yaşamışdır. İlk əvvəl Səfəvilərin, daha sonralar isə Osmanlı dövlətinin ərəb Bağdadında hakimiyyəti türk dilinin yüksəlişinə rəvac vermişdir. Bu dövrdə Şərqin parlaq günəşi Füzuli bir şair olaraq yetişərək genişlənməkdə olan Osmanlı imperiyasının Şərq üfüqlərində parlayan ulduz kimi səmanın dərin ənginliklərini müdhiş bir nura qərq etmiş, onun yerini heç bir varis

tuta bilməmiş, bu parlaq ulduz elə doğduğu yerdə də batmışdır. (17, s.70) Türckə yazmaqla "düşvar olanı asan" edən Füzuli bu dili ədəbiyyat dilinə çevirmişdir:

Ey feyzrəsani ərəbi-türki-əcəm!
Qıldın ərəbi əfsəhi-əhli-aləm.
Etdin füsəhayi-əcəmi İsadəm,
Mən türkzəbandan iltifat eyləmə kəm [7, s. 15]

O ki, qaldı Füzuli dilinin qəlizliyinə burada bir neçə məqamı nəzərə almaq lazımdır. Hər hansı bir dövrə aid olan yazılı abidəni anlamaq üçün ən əvvəl həmin mənbənin aid olduğu zamanın dilini və yazısını bilmək gərəkdir. Bundan əlavə tədqiqatçı yazılı abidənin dilini və yazısını oxumaqla yanaşı onun tarixinə də bələd olmalıdır. Yazılı abidəni anlamaq onun daşıdığı ədəbi mahiyyətini dərk etmək deməkdir, çünki məzmunundan və formasından asılı olmayaraq hər bir yazılı abidə bir ədəbi əsərdir [16, s. 10]. Bu fikirləri əsas götürərək qeyd etmək lazımdır ki, əvvəla şairin zamanında ərəb və fars dilləri dövrün oxucusu üçün anlaşılan bir ünsiyyət vasitəsi olmuşdur. Belə ki, IX əsrdən fars dilinin türk ədəbiyyatına sirayət etməsi farsların hakim mövqe tutması ilə əlaqədar olmuşdur. Bu səbəbdən də o dövrün və mühitin insanları, əsasən də ziyalı təbəqə bu dili öz doğma dilləri kimi mənimsəmişlər. Şairin "işlətdiyi ərəb və fars sözlərinin çoxu isə, o zaman danışıq dilinə keçmiş, ədəbi dildə və danışıq dilində vətəndaşlıq hüququ qazanmış sözlərdən ibarətdir." [2, s. 277] Yəni sözümüzün canı ondan ibarətdir ki, Füzuli öz dövrünün standartları və meyarlarına uyğun yazmış və əsərləri dillər əzbəri olmuş, əlyazmaları Şərqin bütün ölkələrində əldən-ələ gəzmiş, qəlblərdə taxt qurmağı bacarmışdır.

Füzuli dilinin çətin anlaşılan olmasının ikinci tərəfi isə onun poetik dili və bədii üslubu ilə əlaqədar olmasıdır. Hər bir savadlı şair kimi Füzuli də ərəb və fars dilində yazılan poetik sənət nəzəriyyəsinə dair traktatlar, şeirin əsas formalaşdırıcı elementlərinin təsvir edildiyi risalələr ilə tanış idi. Müasir ədəbiyyatşünaslıq elmində nəzəri problemlərin mövcud olması bu çətinliklərin əsasını təşkil edir.

Məhəmməd Füzuli kimi bir düha da sözə elə bir əsrarəngizlik, elə bir sehr qatmış ki, onun poetikası qarşısında deyilən hər hansı bir fikir aciz və gücsüz qalmışdır. Musa Adilovun təbirincə desək "bütün yüksək, ali sözləri Füzuli işlədib, bunların xıltı bizə qalıb. Biz də bu xıltla kifayətlənirik." [1, s. 9]

Füzuli yaradıcılığından bir çox əsər və tədqiqat işləri yazılmışdı. Lakin bu əsərlər Füzuli sözünün və şeirinin dərinliyinə qədər dərk olunması üçün kifayət etməmişdir. Bunun da səbəbi Füzuli poetikasının qarşısında duran bir çox problemlərin mövcud olmasıdır. Bu problemlər isə bizə sovet dönəmindən miras qalaraq həm ədəbiyyatımıza, həm mədəniyyət və incəsənətimizə sirayət etmişdir.

Baxmayaraq ki, "Yunan-Roma ədəbiyyatının əsas nümunələri VII-IX əsrlərdə ərəb dilinə də tərcümə olunmuşdur və nəticədə ərəb dilində müsəlman ədəbiyyat nəzəriyyəsi -Şərq poetikası və onun terminoloji bazası" [4, s. 11] yaransa da hələ sovet dönəmindən ədəbiyyatımız yunan Avropa sistemi əsasında öyrənilmiş, "hətta səhv olaraq Avropa və Şərq poetik kateqoriyaları bir yerdə qruplaşdırılmışdır." [8, s. 24]

Sovet boyunduruğundan azad olmağımıza baxmayaraq Avropa və rus ənənələri çərçivəsindən tam çıxmaq, ədəbiyyatımızı təzyiq altında saxlayan, şərq ənənələrinə zidd olan meyllərdən azad olmaq hələ də tam mümkün olmamışdır.

Füzuli ilə müasir dövrümüz arasında bizi dörd əsrdən çox zaman kəsiyi ayırır. Füzuli irsini araşdırarkən bu böyük zaman kəsiyi bizi məhz həmin vaxta kökləməli, həmin dövrün təfəkkür və düşüncə tərzinə istiqamətləndirməlidir. Burada ən vacib və ən mühüm olan Şərq poetik vasitələrini öyrənilməsində ənənəvi bir boşluğun mövcudluğudur.

Ədəbiyyat nəzəriyyəsinin qolu sayılan poetika uzun bir təkamül yolu keçərək sənət səviyyəsinə yüksəlmişdir. Şərq poetikası isə poetikanın banisi sayılan Aristotelin yalnız yunan

ədəbiyyatının özəlliklərini ümumiləşdirdiyi "Poetika" əsərində səsləndirdiyi fikirlərdən daha fərqlidir. Bunun əsasında klassik şərq ədəbiyyatının yaratdığı suallara cavab tapmaq qeyri mümkün hesab edilir. Döğrudur, sovet dönəminin müəllifləri klassik Azərbaycan şairlərinin söz haqqında fikirlərinin çox maraqlı və hikmətli olduğu qənaətində olduqlarını qeyd etsələr də, Azərbaycan şairlərin orijinal mülahizələrinin Aristotel poetikasından ayrı götürülməməsini də tövsiyyə etmişdilər.

Fikrimzcə klassik yunan mədəniyyəti ilə yaxından tanış olan şairlərimiz bu mədəniyyətin nəzəri görüşlərindən faydalansalar da daha yüksək və əlçatmaz bir sənətkarlıq nümunələri yaratmağa müvəffəq olmuşlar. Bunun da başlıca səbəbi "ərəb bəlağətinin heç də təkcə yunan sistemindən qidalanan bir sahə olamadığı" məsələsidir. [11, s. 79]

Şərq poetikası daim öz zənginliyi, rəngarəngliyi ilə seçilmişdir. Onun insan idrakına, mənəvi aləminə nüfuzunun nə qədər sirayət etdiyi həmişə maraq və təəccüb doğurmuş, hələ də təəccüb doğurmağa davam edir. Göründüyü kimi sovet dönəmində yazılan ədəbiyyat nəzəriyyəsinə əsaslanaraq Füzuli irsini, Füzuli poetikasını öyrənmək mümkün olmamışdır. Sovet dönəmində bu sahə Yunan-Avropa sistemi əsasında öyrənildiyi üçün klassik ədəbiyyatımız, klassik poeziyamız da sonuna qədər tədqiq edilməmiş qalmışdır. Haqqında bu qədər gözəl fikirlər deyilən söz sənətinin öyrənilib tədqiq edilməsi bir çox çətinliklər ilə üzləşmişdir.

Hər bir mədəniyyətin özünəməxsus cəhətləri olduğu kimi onları digər mədəniyyətlərdən fərqləndirən xüsusiyyətləri də mövcuddur. Lakin bu onların eyniliyi və yaxud da eyni müstəvi altında araşdırlımasına gətirib çıxarmamalıdır. Hər bir mədəniyyət öz kontekstində öyrənilməli və tədqiq olunmalıdır. Şərq poetikası məhz elə islam mədəniyyətindən qaynaqlanmışdır. Ritm və təqlid kateqoriyaları əsasında formalaşan Yunan-Avropa məktəbindən fərqli olaraq Şərq poetikası daha çox şaxəli, mürəkkəb və çətin bir sahədir.

Elə buna görə də bir çox klassiklarımızın, o cumlədən M.Füzuli əsərlərinin bədii xüsusiyyət və incəlikləri kölgə altında qalmışdır. "Məhəmməd Füzulinin (digər görkəmli klassiklərimizin) dil və üslub xüsusiyyətlərinin araşdırılmamasına səbəb XVI əsrdə Şərq, hazırda isə Avropa poetikasının (anlayışlarının, terminlərinin, görüşlərinin) təfəkkürümüzdə hakim olmasıdır." [1, s. 4]

Füzuli dilinin qəlizliyinin səbəblərindən biri kimi də şairin orjinallığı və təkrarsızlığını göstərmək olar. Sənətkar klassik Azərbaycan ənənələrini davam etdirsə də, Şərq ədəbi məktəbinə bağlı olsa da, bu məktəbin bir nümayəndəsi kimi yüksəlsə də heç kimi təkaralamamış, öz dəsti-xəttini yaratmışdır. Füzuli öz sələflərinin yaradıcılığı ilə yaxından tanış olmuş, lakin onları təqlid etməmiş, özünə yeni bir yol çizmişdı. Şair "əsl dahi kimi tapdanmış yollar ilə gedə bilməzdi. Ona görə də o poeziyada yeniliyi dəyərləndirən biri kimi hər bir sənətkarın özünəməxsus yaradıcı bir obraza sahib olmasını vacib hesab edirdi."[15, s. 9] Bənzərsiz, təqlidsiz bir yazı isə oxucunun qulaqlarına tanış gəlməyə bilər. Ədəbiyyata yeni bir ruh qatan şair bir inqilab yaratmış, buna görə də oxucusunu öz orjinallığl ilə çətinliyə salmışdı. Mühafizəkar oxucu isə qulaqlara yad olan hər hansı yeniliyi qəbul etmə və qavrama problemi yaşayır. "Yaradıcılıqda nə varsa, hamısı orijinal olmalıdır.- Füzulinin qənaəti belədir, həm də bu qənaət şairin nəzəri əqidəsinə çevrilmişdir." [5, s. 103]

Şairin düşüncə tərzi qəlblərdə təlatüm, beyinlərdə inqilab yaratmışdır. Bu sənəti ən incə məqamlarına qədər mənimsəyən şair ənənəvi fars şeir qəliblərindən çıxaraq "nəzmi-nazik türk ləfzi ilə" əbədiyyətə qədər yaşayacaq bir sənət qoymağa müvəffəq olmuşdur. F.Köçərlinin təbirincə desək, "Əgər ki, ondan müqəddəm türklərdən də bəzi mötəbər şairlər olubdur, vəli onun kimi müqtədir və cəmi lisana malik və camei-fünuni-nəzm və nəsr olmayıbdır. Və həqiqətdə demək olur ki, türk dilinə rövnəq verən və onu xarü-xaşakdan təmizləyib bir göyçək və şəfalı çəmənə bənzədən Füzuli olubdur" [9, s. 58].

Fars və ərəbdilli sözlərin geniş istifadə edilməsi ilə yanaşı, əruz vəzninin türk şeiri üçün istifadəsini bu çətinliklərin əsas səbəblərindən saymaq olar. "Belə ki, Füzuli Azərbaycan əruzunda işlənən on iki bəhrin onunu öz yaradıcılığında tətbiq etmişdir. Eyni zamanda o, ərəb

əruzuna məxsus olan, digər xalqların poeziyasında nadir hallarda işlənən, məsələn, kamil bəhrinə, yenə də ancaq və ancaq ərəb əruzunda işlənən münsərih bəhrinin müftə'ilün fA'ilAtü müftə'ilün fə' növünə müraciət edir" [10, s. 4].

Bütün həyatını şeirə, sənətə fəda edən Füzulinin hər bir misrasında ürfan, süluk, kəlam, fiqh, hədis, təfsir elmlərinin izləri hiss olunur. Dahi sənətkarın əsərlərində şiəliyin, imamətin təbliği açıq-aydın sezilir.

Ey padşəhi-səriri-lovlak,
Məqsudi vücudi-xakü əflak!
Olmuş əflak xaki-rahin,
Çəkmiş əflakı xak cahin.
Ey raqimi-nüsxeyi-məani,
Mə'mureyi-elmi-dinə bani! [6, s. 178]

Füzuli həqiqət yolunun yolçusudur. Bu yola onu aparan eşqdir. Şair hər eşqin əvvəlində və sonunda haqqın durduğuna əmindir. Lakin şairin sənətinin qayəsini təşkil edən bu eşqin zümzüməsini sonuna qədər dərk edə bilməmişik. "Füzulinin bütün gizli, dəruni, müqəddəs hissləri məhz bu iki anlamda öz ifadəsində tapır; dünya işlərinə, həyata və ümumiyyətlə kainata münasibəti də, Yaradana – Allaha və Yaradana – Allahın öz yaratmışlarına sevgisi də, axirət evinə baxışı da bu iki məfhumda Füzuli üçün birləşib vəhdət təşkil etmişdir" [14, s. 70].

Füzuli sözünün dəyəri onun poeziya dilinin həm məna baxımından, həm də mənanın necə ifadə olunması baxımından fərqliliyindən irəli gəlir. Ölməz sənətkarın dilini heç bir şairin dili ilə qarışdırmaq olmaz.

Bax elə Füzuli sözünün qiyməti də, dəyəri də, müasir dövrümüzdə sevilməsi də şeirdə ustalılqla işlətdiyi söz və məna təkararlarıdır. "Füzulinin bu dərəcə önəm verdiyi sözü işlətmə texnikasının bir yönü olan təkrarlar, həmən belirtelim ki, onun şiirlerinde pek çok örneği görülen, dilbilgisindeki ikileme denilen kuruluşlar değildir." [3, s. 10]

Füzuli hər kəlməsi ilə, hər fikri ilə öz təkarasızlığını sübut edir. Onun şeirlərini heç bir şairin qələminin məhsulu ilə qarışdırmaq olmaz. Füzuli öz adını ölümsüzləşdirən bir dühadır.

Mövzunun aktuallığı: M.Füzuli yaradıcılığı Azərbaycan ədəbiyyatının, habelə Şərq poeziyasının ən incə məqamlarını özündə ehtiva edən bir sənət nümunəsidir. Şair işlətdiyi söz və məna təkrarları və bənzətmələri ilə əsrarəngiz bir irs qoyub getmişdir. Böyük sənətkarın hər bir misrası bir musiqilik, bir ahəngdarlıq nümunəsidir. Oxunduqca yeni-yeni suallar, şərh olunmağı gərəkən məqamları ilə zəngin bu irs həmişə tədqiqata cəlb ediləcək bir mənbədir.

Mövzunun yeniliyi: Füzuli həmişə diqqət mərkəzində olub. Onun yaradıcılığı çox şaxəli, poetikası isə öz rəngarənliyi və zənginliyi ilə həmişə seçilmişdir. Məqalədə şairin dilinin çətinlikləri, onun şeirinin məzmun və fəlsəfəsinin qavranmasında yaranan problemlər araşdırılıb. M.Füzuli dilinin çətinlikləri haqqında yeni müddəalar irəli sürülərək bu problemlərin qaynaqlandığı səbəblər haqqında ətraflı söhbət açılmışdır. M.Füzuli yaradıcılığı şairin həm söz möcüzəsinin, həm də bədii təfəkkürünün inikasıdır. Şair qəlbinin, düşüncəsinin, duyğularının qarşılıqlı sintezindən mükəmməl bir nizam yaradaraq ölməzlik yaratmışdır.

Mövzunun praktik əhəmiyyəti: M.Füzuli poeziyası klassik Şərq poetikasının əsasında araşdırılmalıdır. Şairin ruhunu, dil-üslub incəliklərini və o cümlədən sənətkarlıq məharətini müəyyənləşdirmək üçün müsəlman Şərq poetikasına müraciət etmək lazımdır. Yəni Füzuli sözünün fəlsəfəsini anlamaq və dərk etmək üçün yunan-Avropa qəlibləri yararsızdır.

Ədəbiyyat

1. Adilov Musa. M.Füzuli üslubu və poetik dili. VII c. Elm və təhsil.
2. Araslı, Həmid. Böyük Azərbaycan şairi Füzuli. Bakı-Azərbaycan uşaq və gənclik ədəbiyyatı nəşriyyatı, 1958.

3. Dilçin, C. Füzulinin şiirlerinde söz tekrarlarına dayanan bir anlatım özelligi // Türkoloji dergisi, − 1992.
4. Əliyev R. Ədəbiyyat nəzəriyyəsi. Bakı-Mütərcim 2008
5. Əliyev S. Füzuli poetikası. Bakı-Yazıçı 1986.
6. Füzuli, M. Əsərləri / M.Füzuli, − Bakı, − c.2, − 1958.
7. Füzuli, M. Əsərləri. [VI cilddə] / M.Füzuli, − Bakı, − c.1. − 2005.
8. Həmid M. Orta əsrin bədii təfəkkürü və klassik Azərbaycan ədəbiyyatı (Füzuli yaradıcılığı əsasında) Ozan-Bakı 1996
9. Köçərli, F. Azərbaycan ədəbiyyatı / F.Köçərli, Bakı, − c.1. −2005.
10. Quliyev, T. Anadilli əruz vəznli şeirimizin poetik inkişaf yolu // Ədəbiyyat qəzeti, 06 sentyabr 2022-ci il.
11. Quliyeva M.Şərq poetikasının əsas kateqoriyaları. Bakı-2010
12. Məhəmmədi M. Ön söz// Mustafa N. Füzulinin poetik semantikası. − Bakı, − 1994.
13. Paşayev, M. Füzuli sənətkarlığı / M.Paşayev, − Bakı, − 2018.
14. Rüstəmova, A. Ön söz. M.Füzulinin seçilmiş əsərləri / A.Rüstəmova, − Çaşıoğlu, − 2004.
15. Гулузаде М. Основные мотивы лирики Физули. Литературный Азербайджан. 1958, №12
16. Конрад, Н. Запад и Восток / Н.Конрад, − Москва, − 1972.
17. Gibb E.J.W/ A history of Ottoman poetry, vol.I. London, 1900

J.S.Shukurova

The Power of Muhammad Fuzuli's Words

Summary

M.Fuzuli is the pearl of our classical literature. His works are loved, read and will continue to be read even centuries later. The work of Fuzuli, who treats his native language with great respect and love, is not a source accessible to every human mind. To understand this source, the reader must have high taste and deep thinking. The great artist knew the value of every word he spoke and managed to lift it to the skies. It is for this reason that Fuzuli, indispensable in praising the divine beauty, stands at the top of the world's verbal art.

Kay words: *meaning, word art, language, artistic style, philosophy*

Ж.С.Шукурова

Сила слов Мухаммада Физули

Резюме

М.Физули – жемчужина нашей классической литературы. Его произведения любят, читают и будут читать даже спустя столетия. Творчество Физули, который с большим уважением и любовью относится к своему родному языку, не является источником, доступным каждому человеческому разуму. Чтобы понять этот источник, читатель должен обладать высоким вкусом и глубоким мышлением. Великий Физули знал цену каждому сказанному им слову и сумел вознести его до небес. Именно по этой причине незаменимый в восхвалении божественной красоты Физули стоит на вершине мирового словесного искусства.

Ключевые слова: *смысл, искусства слова, язык, художественный стиль, философия*

Rəyçi: filol.e.d. N.Göyüşov

Redaksiyaya daxil olub: 08.05.2024